AZƏRBAYCAN RESPUBLİKASI

KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ

AQRAR TƏDQİQATLAR MƏRKƏZİ

# AZƏRBAYCANDA ZEYTUN İSTEHSALI İLƏ BAĞLI

# A R A Y I Ş



Bakı – 2021

# MÜNDƏRİCAT

1. Sahə, istehsal və məhsuldarlıq göstəriciləri ........ 3
2. İdxal və ixrac göstəriciləri ........ 6
3. Qlobal istehsal, idxal və ixrac ........ 8

# 1. Sahə, istehsal və məhsuldarlıq göstəriciləri

2020-ci ilin məlumatlarına əsasən Azərbaycanda zeytun bağlarının ümumi sahəsi 6.4 min hektar olub. 2020-ci ildə zeytun bağlarının sahəsi 2015-ci ilə nisbətən 3.8 dəfə, 2019-cu ilə nisbətən isə 1.1 dəfə artıb. Mövcud zeytun bağlarının 4.2 min hektarı və ya 65.6%-i bar verən yaşdadır *(Qrafik 1).*

**Qrafik 1. Azərbaycanda zeytun bağlarının sahəsi, min ha**




***Mənbə: Dövlət Statistika Komitəsi***

Cəmi zeytun bağlarının 89.5%-i ənənəvi, 8.4%-i superintensiv, 2.1%-i isə intensiv bağlardır *(Qrafik 2).*

**Qrafik 2. Azərbaycanda zeytun bağlarının əkin strukturu**




***Mənbə: Dövlət Statistika Komitəsi***

2020-ci ildə cəmi zeytun bağlarının 42.1%-i Abşeron rayonunun, 40.0%-i Bakı şəhərinin, 10.0%-i Xızı rayonunun, 3.5%-i Siyəzən rayonunun, 3.4%-i Salyan rayonunun 0.9%-i isə digər rayonların payına düşüb *(Cədvəl 1).*

**Cədvəl 1. 2020-ci ildə zeytun bağlarının rayonlar üzrə bölgüsü**

| | Cəmi bağlar, ha | Ondan meyvə verən yaşda, ha | İl ərzində yeni salınmış bağlar, ha |
|---|---|---|---|
| **Ölkə** | **6,430.2** | **4,164.4** | **309.8** |
| Abşeron | 2,710.3 | 1,608.0 | 258.5 |
| Bakı | 2,575.2 | 2,462.8 | 10.3 |
| Xızı | 642.4 | 41.4 | - |
| Siyəzən | 224.0 | 9.0 | - |
| Salyan | 218.0 | 34.0 | - |
| Şəki | 30.0 | - | 30.0 |
| Goranboy | 11.0 | - | 11.0 |
| Şabran | 5.8 | - | - |
| Şirvan | 4.0 | 2.0 | - |
| Saatlı | 2.7 | 2.5 | - |
| Digər | 6.8 | 4.7 | - |

***Mənbə: Dövlət Statistika Komitəsi***

2020-ci ildə zeytun istehsalı 2015-ci ilə nisbətən 9.2%, 2019-cu ilə nisbətən isə 16.7% azalaraq 968.6 ton olub *(Qrafik 3).*

**Qrafik 3. Azərbaycanda zeytun istehsalı, ton**




***Mənbə: Dövlət Statistika Komitəsi***

2020-ci ildə zeytun istehsalının 57.8%-i Abşeron rayonunun, 33.0%-i Bakı şəhərinin, 4.8%-i Salyan rayonunun, 2.6%-i Xızı rayonunun, 1.8%i isə digər rayonların payına düşüb *(Qrafik 4).*

**Qrafik 4. Əsas istehsalçı rayonlarda məhsul yığımı, ton**




***Mənbə: Dövlət Statistika Komitəsi***

2020-ci ildə zeytunun məhsuldarlığı 2.3 sent/ha olub. Məhsuldarlıq səviyyəsi 2015-ci ilə nisbətən 2.7 dəfə, 2019-cu ilə nisbətən isə 45.2% azalıb *(Qrafik 5).*

**Qrafik 5. Azərbaycanda zeytunun məhsuldarlığı, sent/ha**




***Mənbə: Dövlət Statistika Komitəsi***

2020-ci ildə zeytunun məhsuldarlıq göstəricisi Salyan və Xızı rayonlarında ölkə üzrə orta göstəricidən yüksəkdir *(Qrafik 6).*

**Qrafik 6. Zeytunun əsas istehsalçı rayonlarda məhsuldarlığı, sent/ha**




***Mənbə: Dövlət Statistika Komitəsi***

## 2. İdxal və ixrac göstəriciləri

Azərbaycana əsasən "Yalnız zeytundan hasil olunmuş digər yağlar və onların fraksiyaları" idxal edilir. Belə ki, ölkəyə 2020-ci ildə 1.8 min ton məhsul idxal edilib ki, bu da 2019-cu ilə nəzərən 20.9% çoxdur.

Ölkəyə həmçinin az həcmdə "Zeytun yağı və onun fraksiyaları" da idxal edilir *(Qrafik 7).* Bununla yanaşı hər il ölkədən orta hesabla 130 ton "Zeytun yağı və onun fraksiyaları" ixrac olunub.

**Qrafik 7. Zeytun yağları və onların fraksiyalarının idxal miqdarı, ton**




***Mənbə: Dövlət Gömrük Komitəsi***

- 2020-ci ildə “Yalnız zeytundan hasil olunmuş yağlar və onların fraksiyaları” idxalının 66.5%-i İspaniyanın, 13.2%-i Yunanıstanın, 9.1%-i İtaliyanın, 8.3%-i isə Türkiyənin, 2.9%-i isə digər ölkələrin payına düşüb.
- Ölkəyə “Zeytun yağı və onun fraksiyaları” idxalı isə əsasən Türkiyə, İspaniya və İtaliyadan həyata keçirilir.

- 2020-ci ildə zeytun yağları ilə yanaşı “Sirkəsiz və konservləşdirilmiş zeytun” da idxal edilir. Azərbaycana idxal olunan sirkəsiz və konservləşdirilmiş zeytun 2019-cu ilə nisbətən 3.4% azalaraq 909.5 ton olub *(Cədvəl 2).*

**Cədvəl 2. Sirkəsiz və konservləşdirilmiş zeytunun idxal həcmi**

| | **İdxal miqdarı , ton** | **İdxal məbləği, min ABŞ dolları** |
|---|---|---|
| **2015** | 771.6 | 688.9 |
| **2016** | 433.4 | 894.3 |
| **2017** | 890.9 | 1,795.9 |
| **2018** | 727.3 | 1,704.6 |
| **2019** | 942.0 | 2,005.4 |
| **2020** | 909.5 | 1,813.8 |

***Mənbə: Dövlət Gömrük Komitəsi***

- 2020-ci ildə Azərbaycana sirkəsiz və konservləşdirilmiş zeytun idxalının 61.5%-i İspaniyanın, 30.3%-i Türkiyənin, 2.7%-i Yunanıstanın, 5.5%-i isə digər ölkələrin payına düşüb *(Cədvəl 3).*

**Cədvəl 3. Sirkəsiz və konservləşdirilmiş zeytun idxalının ölkələr üzrə bölgüsü**

| | **2017** | | **2018** | | **2019** | | **2020** | |
|---|---|---|---|---|---|---|---|---|
| | **Miqdar, ton** | **Məbləği, min ABŞ dolları** | **Miqdar, ton** | **Məbləği, min ABŞ dolları** | **Miqdar, ton** | **Məbləği, min ABŞ dolları** | **Miqdar, ton** | **Məbləği, min ABŞ dolları** |
| İspaniya | 628.8 | 1,275.8 | 593.2 | 1,361.5 | 635.8 | 1,393.4 | 559.5 | 1,126.3 |
| Türkiyə | 169.3 | 305.8 | 114.0 | 286.7 | 247.6 | 491.4 | 275.3 | 517.0 |
| Yunanıstan | 68.6 | 173.9 | 16.8 | 35.2 | 42.5 | 77.9 | 24.4 | 47.5 |
| Digər | 24.2 | 40.4 | 3.3 | 21.2 | 16.1 | 42.8 | 50.4 | 123.0 |
| **Cəmi idxal** | **890.9** | **1,795.9** | **727.3** | **1,704.6** | **942.0** | **2,005.4** | **909.5** | **1,813.8** |

***Mənbə: Dövlət Gömrük Komitəsi***

## 3. Qlobal istehsal, idxal və ixrac

FAO-nun məlumatına əsasən 2019-cu ildə dünya üzrə 19.2 milyon ton zeytun istehsal olunub. Dünya üzrə istehsal olunan zeytunun 80%-dən çoxu 10 ölkənin payına düşüb *(Qrafik 8).*

**Qrafik 8. Zeytunun qlobal istehsal göstəriciləri, min ton**




***Mənbə: Faostat.org***

2019-cu ildə qlobal bazarda zeytun idxalının həcmi 76.1 min ton və ya 76.5 milyon ABŞ dolları olub *(Qrafik 9).*

**Qrafik 9. Qlobal bazarda zeytun idxalının həcmi**




***Mənbə: Trademap.org***

Qlobal bazarda zeytun idxalının 90.0%-dən çoxu Portuqaliya, İspaniya, ABŞ, İtaliya, Polşa, Fransa, Albaniya, Almaniya, Birləşmiş Krallıq və Rumıniyanın payına düşüb *(Qrafik 10).*

**Qrafik 10. Qlobal bazarda zeytun idxalının ölkələr üzrə strukturu**




***Mənbə: Trademap.org***

Dünya üzrə zeytun ixracında Portuqaliya (61.1%), İspaniya (21.0%), Yunanıstan (8.9%), Pakistan (2.6%) və İtaliya (2.5%) olmaqla ilk beşlikdədir.

**Kənd Təsərrüfatı Nazirliyi tabeliyində**

**Aqrar Tədqiqatlar Mərkəzi**

**tərəfindən hazırlanıb**


**Əlaqə:**

(+994 12) 599-08-88

www.atm.gov.az

info@atm.gov.az

Nizami küçəsi, 92
AZ 1010 Bakı, Azərbaycan


AQRAR TƏDQİQATLAR MƏRKƏZİ